AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# Uşaqları zərərli informasiyadan qoruyaq!




## Valideynlər, informasiya məhsullarının istehsalçıları və yayıcıları üçün vəsait

# Uşaqlar üçün zərərli informasiya nədir?




Uşaqlar üçün nəzərdə tutulmayan, onların fiziki və ya psixi sağlamlığına mənfi təsir göstərən, o cümlədən təhrif olunmuş sosial təsəvvürlərin formalaşdırılması vasitəsilə mənəvi, psixi, fiziki və ya sosial inkişafında pozuntu yaranmasına səbəb olan məlumatdır.

# “Uşaqların zərərli informasiyadan qorunması haqqında”
# QANUN



“Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinə əsasən informasiya məhsulunun yayıcısı həmin məhsulun müstəqil şəkildə və ya ekspertin iştirakı ilə yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən ölkə ərazisində yaya bilməz.

İnformasiya məhsulu dedikdə, ölkə ərazisində dövriyyə və istehlak üçün nəzərdə tutulan media məhsulları, audiovizual məhsullar, kompüter və digər elektron oyunlar, mətbu nəşrlər, çap materialları, habelə mədəni-kütləvi tədbirlər və telekommunikasiya şəbəkəsi vasitəsilə yayımlanan digər məlumatlar nəzərdə tutulur.

Uşaqların zərərli informasiyadan
qorunması haqqında
QANUN

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi




Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 388-2-ci maddəsinə əsasən uşaqların zərərli informasiyadan qorunması haqqında qanunvericiliyin pozulması hallarında fiziki şəxslər **beş yüz manatdan min manatadək** məbləğdə, vəzifəli şəxslər **min beş yüz manatdan iki min beş yüz manatadək** məbləğdə, hüquqi şəxslər **üç min manatdan dörd min manatadək** məbləğdə cərimə edilir.

# İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi QAYDALARI

**İnformasiya məhsullarının yaş kateqoriyasına uyğun təsnifatı müxtəlif yaş qrupuna aid olan uşaqların psixi inkişafının xüsusiyyətləri nəzərə alınaraq, aşağıdakı kimi aparılır:**

**0+** **"universal"** – istənilən yaş qrupları üzrə istifadəsinə icazə verilir;

**6-** **"6 yaşadək"** – altı yaşı tamam olmamış uşaqlar arasında istifadəsinə icazə verilir;

**6+** **"6 yaşdan"** – altı yaşı tamam olmuş uşaqlar arasında istifadəsinə icazə verilir;

**12+** **"12 yaşdan"** – on iki yaşı tamam olmuş uşaqlar arasında istifadəsinə icazə verilir;

**16+** **"16 yaşdan"** – on altı yaşı tamam olmuş uşaqlar arasında istifadəsinə icazə verilir;

**18+** **"18 yaşdan"** – on səkkiz yaşı tamam olmamış uşaqlar arasında istifadəsinə icazə verilmir.

İnformasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi QAYDALARI

# Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyalar

- Zorakılığı və qəddarlığı təbliğ edən;
- Cəmiyyət əleyhinə və hüquqazidd hərəkətləri, o cümlədən cinayətləri təbliğ edən;
- Uşaqların həyat və təhlükəsizliyinə potensial təhlükə yaradan əməlləri təbliğ edən;
- Ailə institutunu nüfuzdan salan;
- Əxlaqdan kənar leksik (təhqir) məzmunlu;
- Pornoqrafik xarakterli.

# Məhdudlaşdırılan informasiyalar

## Müəyyən yaş qrupuna aid uşaqlar arasında yayılması məhdudlaşdırılan informasiyaya aiddir:

Zorakılığı və qəddarlığı nümayiş edən



Qorxu məzmunlu



Qeyri-məişət leksik (jarqon) məzmunlu




Erotik məzmunlu



# Valideynlər üçün tövsiyələr

- Övladınızın öz yaş kateqoriyasına uyğun informasiya məhsulundan faydalanmasına ciddi nəzarət edin. Əks halda uşağa faydadan çox ziyan dəyə bilər.
- Uşağın istifadə etdiyi informasiya məhsullarının yaş kateqoriyasına uyğun düzgün işarələndiyindən əmin olun.
- Yaş kateqoriyası düzgün işarələnməmiş məhsul aşkarladıqda, Dövlət Komitəsinə və digər aidiyyəti dövlət qurumlarına, eləcə də qaynar xəttə müraciət edərək, məlumat verməyi unutmayın.
- Övladınızın maraqlandığı informasiya məhsulları (bədii kitablar, rəqəmsal oyunlar, film, video və digər audiovizual məhsullar, musiqilər, ziyarət etdiyi teatr, konsert, sərgi və digər mədəni-kütləvi tədbirlər) haqqında ilk öncə özünüz məlumat əldə etməyə çalışın.
- Övladınızın istifadə etdiyi televizor, kompüter, planşet, smart telefon və digər rəqəmsal avadanlıqlara valideyn nəzarəti proqramları (məsələn: Google tərəfindən ödənişsiz təklif olunan “Family Link”) yükləyin və uşaqda asılılığın yaranmaması üçün gün ərzində istifadə müddətini onun yaşına uyğun olaraq tənzimləyin.



# Valideynlər üçün tövsiyələr

- Müasir dövrdə azyaşlıların zərərli informasiyanın ən təhlükəli formaları ilə internətdə rastlaşdığını nəzərə alsaq, 12 yaşa qədər övladlarınızın sosial şəbəkələrdən (“İnstagram”, “TikTok”, “Snapchat”, “Facebook” və s.) istifadə etməsinə məhdudiyyət qoyun.
- Övladlarınıza sosial şəbəkələrdə tanımadığı insanlarla ünsiyyət qurmamağı, adı, soyadı, fotoşəkilləri, evinin və ya məktəbinin ünvanını, telefon nömrəsi və digər şəxsi məlumatlarını paylaşmamağı tapşırın.
- Səmimi söhbət zamanı zərərli informasiyalar və internetdəki təhlükələr barədə uşağa məlumat verin, bir valideyn kimi onu qoruya bilməyiniz üçün cihazlardakı şifrələrini sizə də bildirməsini özündən xahiş edin.
- İstifadə etdiyiniz internet şəbəkəsi üzərində filtr proqramlarının tətbiq olunmasına çalışın.
- Övladınızla daha çox vaxt keçirərək, onunla həmsöhbət olun, çətinliklərini, problemlərini, qorxularını dinləyin, ən etibarlı dostu siz olun.



# 150 metr ◄······► məsafə




QADAĞAN EDİLMİŞ İNFORMASİYA MƏHSULLARI

Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulunun uşaqlar üçün nəzərdə tutulmuş təhsil müəssisələrində, tibb, sanatoriya-kurort, bədən tərbiyəsi və idman, mədəniyyət, istirahət və sağlamlaşdırma müəssisələrində və ya həmin müəssisələrin sərhədindən yüz əlli metrdən az olan məsafədə yayılmasına yol verilmir.

Uşaqların ziyarət etməsi və ya olması qadağan olunmayan yerlərdə, o cümlədən internet və digər telekommunikasiya şəbəkələrində yerləşdirilən informasiya məhsullarına girişi mümkün olan ictimai yerlərdə uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının inzibati, texniki proqram vasitələri tətbiq edilmədən yayılmasına yol verilmir.


KİBER ZORAKILIĞA SON!
HEÇ KİM!
Zəif
%!¡#@!
Axmaq
Çirkin!
QAYNAR XƏTTƏ ZƏNG ET! 116-111


ÖVLADINIZI ZƏRƏRLİ İNFORMASİYALARDAN QORUYUN!
VALİDEYN NƏZARƏTİ PROQRAMLARINDAN İSTİFADƏ EDİN!
ÖVLADIM
PROQRAMLAR
TƏNZİMLƏMƏLƏR
CİHAZLAR


ÖVLADININ PROBLEMLƏRİNİ DİNLƏ!
QAYNAR XƏTTƏ ZƏNG ET! 116-111
İNTİHARDAN QORU!


İDMAN
SAĞLAM HƏYAT TƏRZİDİR!


UŞAQLARIMIZ ÜÇÜN ÜÇ HƏ
SEVGİ! ANLAYIŞ! QAYĞI!


KİBERCİNAYƏTDƏN ÖZÜNÜ QORU!
QAYNAR XƏTTƏ ZƏNG ET! 116-111

**Ailə, Qadın və Uşaq Problemləri üzrə**
**Dövlət Komitəsi**

**www.family.gov.az**

E-poçt: office@family.gov.az

Telefon: (+994 12) 498 00 92, (+994 12) 598 27 12

Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80, Hökumət Evi

Uşaqların zərərli informasiyadan
qorunması haqqında
QANUN

İnformasiya məhsulunun yaş
kateqoriyalarına aid edilməsi
QAYDALARI